*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (1) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.12.2024*
*Kabul tarihi |Accepted:19.02.2025*
*Yayın tarihi |Published:25.02.2025*

**İlhamə Məmmədova**

**https://orcid.org/0009-0001-4118-8893**
*PhD, The Institute of Oriental Studies after Z. M. Bunyadov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, ilhama.mamedova72@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Məmmədova, İ. (2025). Cəlaləddin Ruminin "Məsnəvi-ye Mənəvi" Əsərində Məqamların Şərhi. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (1), 1026-1044. *https://doi.org/10.5281/zenodo.15629727*

# Cəlaləddin Ruminin "Məsnəvi-ye Mənəvi" Əsərində Məqamların Şərhi

***Xülasə***

*Təsəvvüfdə və sufinin keçdiyi seyrü-sülukun şərhində ən mühüm məsələlərdən biri məqamlar və hallardır ki, sufi və arif həqiqi kamala və Haqqa çatmaq üçün bu mərhələləri qət etməlidir. Bu hallar onun varlığına daxil olmalı və o, bunlardan bəhrələnməlidir. Oxşar forma irfanda da mövcuddur ki, bunlar artıq mənzil və mərhələlər adlanır. Qeyd etmək lazımdır ki, bu etapları bəzən bab, meydan və s. də adlandırırlar. Salik gərək riyazat mücahidə ilə məqamı əldə etsin. O məqamda qalaraq, onun şərtlərini yerinə yetirsin və bundan sonra digər məqama keçsin. Hal ancaq qeybdən gəlmədir. Bu elə bir davamsız, qısa bir halətdir ki, saikin qəlbinə düşür, işıq kimi parlayır və keçir. Sufilərdə yeddi məqam məşhurdur. Bunlar tövbə, vərə (möminlik), zühd (tərkidünyalıq), fəqr (yoxsulluq), səbr, təvəkkül və rizadır (razılıq, şükr). Digər sufi məqamlarından fərqli olaraq tövbə, vərə, zühd, fəqr, səbr, təvəkkül, riza məqamları və onların əhəmiyyətini Mövlana "Məsnəvi-ye mənəvi" əsərində geniş şəkildə göstərmişdir. Sonralar təriqətdə birləşən sufi və ariflər həmin məqamlardan bəhrələnmişlər. Məhz bu məqamlar Mövləviyyə təriqətində möhkəmlənmiş və bu səbəbdən də biz tədqiqatımızda bu yeddi məqamı "Məsnəvi-ye mənəvi" əsəri əsasında araşdırmağı lazım bilirik.*

***Açar sözlər:*** *Cəlaləddin Rumi, Məsnəvi-ye mənəvi, Tövbə, Möminlik, Zühd, Fəqr, Səbr, Təvəkkül*

# Commentary on the Maqams in Jalalad-Din Rumi's 'Masnavi-i Ma'nevî'

***Abstract***

BY NC Creative Commons Licence

*One of the fundamental aspects of Sufism, particularly in the interpretation of the spiritual journey of a Sufi, concerns the sequential stages and conditions that a seeker and a saint must undergo to attain ultimate perfection and divine Truth. These stages must not only be experienced but also fully internalized. A comparable structure persists in contemporary folk traditions, commonly referred to as "dwelling" or "stage," though alternative terminologies such as "door" or "square" are also employed. The spiritual aspirant must engage in a rigorous struggle to ascend through these stages, fulfilling the requisite conditions of each before progressing further. This journey is not merely confined to the metaphysical realm; rather, it manifests as a transient state that momentarily illuminates the heart and soul before dissipating. Among Sufi traditions, seven key stations are widely recognized: repentance (tawba), piety (wara'), asceticism (zuhd), poverty (faqr), patience (sabr), reliance on God (tawakkul), and contentment (rida). Unlike conventional classifications of Sufi stages, Jalal al-Din Rumi elucidates these stations—repentance, charity, asceticism, poverty, patience, reliance on God, and contentment—in his seminal work, Masnavī-i Maʻnavī. Subsequent Sufi traditions, particularly the Mawlawi order, have profoundly engaged with and institutionalized these spiritual concepts. Given their centrality in Rumi's thought, this study seeks to examine these seven stations with a particular focus on their articulation in Masnavī-i Maʻnavī.*

***Keywords:*** *Jalal al-Din Rumi, Masnavī-i Maʻnavī, Repentance, Piety, Asceticism, Poverty, Patience, Reliance on God, Contentment*

## Giriş

Təsəvvüfdə və sufinin keçdiyi seyrü-sülukun şərhində ən mühüm məsələlərdən biri məqamlar və hallardır ki, sufi və arif həqiqi kamala və Haqqa çatmaq üçün bu mərhələləri qət etməlidir. Bu hallar onun varlığına daxil olmalı və o, bunlardan bəhrələnməlidir. Oxşar forma ürfanda da mövcuddur ki, bunlar artıq mənzil və mərhələlər adlanır. Qeyd etmək lazımdır ki, bu etapları bəzən bab, meydan və s. də adlandırırlar.

Sufilər və ariflər məqam bəhsində adətən Qurani-Kərimin "əs-Saffat" surəsinin 164-cü ayəsinə istinad edirlər: *"Cəbrail Peyğəmbər əleyhissəlama belə dedi: Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri (məqamı) olmasın"*(Quran, 1991, s. 452).

*"Kəşfül-məhcub"da bu ayənin ardınca yazılır: "Adəmin məqamı tövbə, Nuhun məqamı zühd, İbrahiminki təslim, Musanınkı inabət (peşmanlıq, təəssüf), Davudun məqamı hüzn, İsanın məqamı rica (təvəkkül, ümid), Yəhyanınkı xovf, Məhəmmədin (ə) məqamı zikr olmuşdur. Hər məqamın öz sirləri olmuşdur. Nəhayət qayıdışları yenə o asas (əsli) məqam olmuşdur"* (Humayi, 1353, s. 224).

"Risale-ye Qüşeyriyyə"nin tərcüməsində məqam haqqında belə deyilir: *"Məqam bəndənin həqiqi mənzilə daxil olması, cəhd və tələb baxımından müəyyən rəngə girməsidir. Məqam hər kəsin onun yaxınlığında riyazət tapmaq üçün bir yerdə qərar tutmasıdır. Bir məqamın bütün hökm və qaydalarını yerinə yetirməmiş başqa məqama keçmək* olmaz. *Bu əsas şərtdir"* (Qusheyri , 1345, s. 91).

Hal barəsində belə yazılır: *"Hal qəlbdə heç bir əlaməti olmadan qəlbə gələn qeybiyyətdir. Bu şadlıqdan, qəmdən mənimsəmə, sıxılma, genişlənmə, şövq, heybət və hərəkətdən də ola bilər. Hallar bu zaman əta olunur, məqamlar isə əldə edilir. Hallar səxavətin mənbəyindən, məqamlar isə cəhdin səxavətindən meydana gəlir. Məqam sahibi öz məqamında hökmlü və varlı olur, hal sahibi isə bundan üstündür"* (Qusheyri , 1345, s. 92).

## 1. Sufi ədəbiyyatında məqamlar

Əzizəddin Mahmud Kaşani *"Misbahül-hidayə"də deyir: "Salikin ona yaxın haldan aldığı murad qeybiyyətin varid olmasıdır ki, hərdən-hərdən ülvi aləmdən salikin qəlbinə baş vurur. Bu zaman ilahi cazibiyyətin kəməndi ilə saliki ən alçaqdan ən yüksəyə qaldırır. Məqamlardakı məqsəd isə sülukun mərtəbələrindən bir mərtəbədir ki, həm məqam salikin ayağının altında olur və həm də ona istiqamət verir. Məqam keçici deyil. Hal isə yuxarıda göstərilən xüsusiyyətlətə malik olduğundan salik tərəfindən əldə edilmir, bəlkə salik onun tərəfindən işğal olunur. Məqamları isə salik özü əldə edir. Bir çox təriqət başçıları arasında məqamlar və hallar mübahisəli məsələlələr doğurur. Belə ki, onların hər ikisini çox vaxt qarışdırırlar. Bəziləri hər hansı məqama hal, hala isə məqam deyirlər"* (Kaşani, 1325, s.125).

Qısa sözlə desək məqam əldə edilir. Salik gərək riyazat mücahidə ilə məqamı əldə etsin. O məqamda qalaraq, onun şərtlərini yerinə yetirsin və bundan sonra digər məqama keçsin. Hal ancaq qeybdən gəlməlidir. Bu elə bir davamsız, qısa bir halətdir ki, saikin qəlbinə düşür, işıq kimi parlayır və keçir. Sufilərdə yeddi məqam məşhurdur. Bunlar tövbə, vərə (möminlik), zühd (tərkidünyalıq), fəqr (yoxsulluq), səbr, təvəkkül və rizadır (razılıq, şükr). "Misbahül-hidayə"nin müəllifi məqamların sayını ona çatdırır və bu yeddi məşhur məqama xovf, şükr və ricani əlavə edir və onlar hər birinə xüsusi şövq verir. Lakin Ziyaəddin Səccadi bu fikrə xilaf çıxaraq qeyd edir ki, bu üç axır məqam əslində hallara aiddir.

Qeyd etməliyik ki, ariflərin seyrü-sülukunun mənzil və mərhələlərində razılıq dediyimiz riza iyirmi üçüncü mərhələdə, xovf otuz üçüncü, rica qırx üçüncü yerdədir (Ənsariyan, 1368, c.1, s.113). Başqa bir cəhətdən Şeyx Fəridəddin Əttar "Məntiqüt-teyr" əsərində Simurğa doğru olan yolda salik quşların seyrini yeddi məqama ayırır (Alizade, 2024). Həmin məqamlar bunlardır: tələb, eşq, mərifət, rifah, tövhid, heyrət, yoxsulluq və fəna. Əttar deyir:

گفت ما را هفت وادی در راه است
چون گذشتی هفت وادی درگه است
هست وادی طلب آغاز کار
وادی عشق است از آن پس بی کنار
پس سیم وادی است آن معرفت
پ چهارم وادی استغنی صفت
هست پنجم وادی توحید پاک
پس ششم وادی حیرت صبعناک
هفتمین وادی فقر است و فنا
بعد از این روی روش نبود تو را (Əttar, 1341, s. 180)

(Dedi: bizim yolumuzda yeddi vadi var. Yeddi vadini keçəndən sonra dərgahdır. İş "tələb" vadisi ilə başlayır. Ondan sonra kənarda qalmayan vadi "eşq" dir. "Mərifət" üçüncü vadidir. Sonra dördüncü vadi "rifah" sifətində gəlir. "Tövhid" adlanan beşinci vadi var. Sonra isə altıncı çox çətin "heyrət" vadisidir. Yeddinci vadi "yoxsulluq və fəna"dır. Bundan sonra sənin yolun yoxdur. Digər sufi məqamlarından fərqli olaraq tövbə, vərə, zühd, fəqr, səbr, təvəkkül, riza məqamları və onların əhəmiyyətini Mövlana "Məsnəvi-ye mənəvi" əsərində geniş şəkildə göstərmişdir. Sonralar təriqətdə birləşən sufi və ariflər həmin məqamlardan bəhrələnmişlər. Məhz bu məqamlar Mövləviyyə təriqətində möhkəmlənmiş və bu səbəbdən də biz tədqiqatımızda bu yeddi məqamı "Məsnəvi-ye mənəvi" əsəri əsasında araşdırmağı lazım bilirik.

**Tövbə:** "Risaleyi-Qüşeyriyyə"də yazılır: "Ya Rəsulullah tövbənin əlaməti nədir? Cavab verir ki, peşmançılıq" (Qusheyri, 1345, s. 136). "Mirsadül-ibad"da tövbə haqqında belə deyilir: "Tövbə bu yolun mənzillərindən əvvəlincisidir. Axtarışda olanların məqamlarının ən birincisidir. Tövbənin həqiqəti qayıtmaq mənasındadır. Deyirlər, düzgün olsun deyə tövbənin üç şərti var: Əksinə getdiyinə peşmançılıq, hal zamanında günahdan əl çəkmək və yenə günah işləməyəcəyinə niyyət etmək.

Bir çox sufilər bu əqidədədirlər ki, salik özünün ilk addımında yəni tövbədə gərək ya pirin, ya mürşidin, ya da bir müəllimin yolunu tutsun, onun təlimi və itaətində olsun, ona sirr tapşırsın. Həmin insan mənəvi cəhətdən yüksək mövqe tutan, muradına çatmış və kamil insan adlandırılır. Deyilənə görə bu insan möcüzəli və qeyri-adi olmalıdır. Salik isə tövbəni bütün şəriətə əks olanlara nəsihət etməlidir. Salik bunu möhkəm şəkildə etməlidir ki, gələcəkdə onun bütün əməllərinin təməli bunun üzərində qurulacaqdır (Razi, 1366, s. 257).

Mövlana deyir:

هر دلي را سجده هم دستور نيست

مزد رحمت قسم هر مزدور نيست (Cəlaləddin Rumi, 1372, s. 245)

(Hər ürəyə səcdə üçün izn verilmir, rəhmətin muzdu hər muzdura nəsib olmur)

Əkbərabadi bu beytin şərhində deyir: "Səcdə burada tövbə və qayıtmaq mənasında işlənmişdir. Tövbənin hər hansı bir şəxsin ürəyində öz-özünə "günah edim, sonra da tövbə edərəm" deməsi kimi başa düşmək düzgün deyil. Bəlkə tövbə ilahi bir vergidir ki, burada səcdənin məqsədi xalis ibadətə çevrilir (Əkbərabadi, 1312, s. 158).

هين به پشت آن مكن جرم و گناه

كه كنم توبه در آيم در بناه

مي ببايد تاب و آبي توبه را شرط

شد برق و سهابي توبه را (Cəlaləddin Rumi, 1372, s. 245)

(Heç vaxt "tövbə edib, Tanrıya sığınaram" deyib cürm və günah etmə. Tövbəyə bir parlaqlıq və su lazımdır, tövbə üçün bir bulud və şimşək əsas şərtdir). Bilə-bilə günah edib, bunun ardınca tövbə edəcəyini düşünmək özü bir günahdır. Tövbə göz yaşı və ürək atəşi ilə həmrah olmalıdır. Elə ki, sidq ürəklə tövbə hasil olur o zaman qəlb bağına səfa və şadlıq verir. Mövlana tövbənin yolunu başa düşməyənlərə deyir:

ای خبرهات از خبرده بي خبر

توبه تو از گناه تو بتر

ای تو از حال گذشته توبه جو

کی کنی توبه از این توبه؟ بگو (Cəlaləddin Rumi, 1372, s. 103)

توبه كرم و عشق همچون اژدها

توبه وصف خلق و آن وصف خدا (Cəlaləddin Rumi, 1372, s. 934)

(Xəbərlərin, xəbərvericidən (Haqq-təala) bixəbərdir, tövbən günahından betərdir.

Ey keçən hallardan tövbə etmək istəməyən, de görüm bu tövbədən nə zaman tövbə edəcəksən? Tövbə bir qurddur, eşq isə əjdahaya bənzər, tövbə xalqın sifətidir, eşq Tanrının vəsfi) İslam dinində bir dəfə tövbə edib təzədən həmin ziyanlı işi təkrar etmək böyük günahdır. Bu cür iş tutan insanlar Haqq-təalanın qanunlarından xəbərsizdilər. Dini qayda-qanunlara əsasən tövbədən sonra həmin günahın təkrarən işləmiş insanın peşimançılığı Allahın hüzurunda qəbul edilmir.

توبه كن، وزخرده استفراغ كن

ور جراحت كهنه شد رو داغ كن (Cəlaləddin Rumi, 1372, s. 259)

(Tövbə et, içdiyini qaytar. Əgər yaran köhnəldisə təzədən dağla)

Gördüyün pis işlərdən tövbə et və bütün haramlardan əl çək. Kərim Zamani yazır: "İkinci misra zərbül-məsələ işarədir: "Yaranın sonuncu dərmanı dağlamaqdır" (Zərrinkub, 1373, c.1,

s. 59). Yəni əgər insan yalnız öz nəfsinin havasına uysa, o zaman onun xasiyyətində yalnız heyvani hisslər baş qaldıracaqdır. Elə ki, bu sifətlər yazılır onları dağlamaqdan başqa əlac yoxdur (Zamani, 1373, c.2, s. 500). Ümumiyyətlə, tövbənin əsası beşdir: Əvvələn ayinlərin icrası, ikincisi olanların keçməsi (qəzası), üçüncüsü halallığın tələbi, dördüncüsü günahın yuyulması, beşincisi nəfslə mübarizə. Tövbənin əsası üç şeydir: ürəkdəki peşimançılıq, dildəki üzr, pisliklərdən ayrılma (Nikolson, 1373 s. 368). Tövbə Allahına qayıdış deməkdir. Xudbinlik və mənlik hissini özündən kənarlaşdırmayan əgər tövbə iddiasındadırsa, bu zaman onun günahı daha dəhşətlidir. Tövbə sülukun ilk məqamıdır. Əslində tövbə ruhun qəflətdən oyanmasıdır ki, günahkar savab olmayan yollardan xəbərdar olur. Bir şəxsin tövbəsi üçün tənbeh kifayət deyil, bunun üçün günahkar bütün günahlarından azad olmalı və bir daha onlara qayıtmamalıdır. Tərbiyəvi prinsiplərə əsaslanan tövbə məqamının yolları asan deyil. Bu yola qədəm qoymuş salikdən güclü iradə tələb olunur. Tövbə məqamının üstünlüklərindən biri də budur ki, o təkcə sufilərə deyil, bütün bəşəriyyətə lazım olan bir mərhələdir. Öz əməllərinin mahiyyətini dərk edən insan düzgün yola qədəm qoymalı və bunu ətrafindakılara da öyrətməlidir. Qısa sözlə desək tövbə həm qəlbin, həm də cismin asayişini təmin etməyə xidmət edir. Tövbə məqamının mahiyyətini tam şəkildə dərk edib qəbul edən sufi mömindir. Çünki o, artıq iman sahibidir. Elə bu səbəbdən də vərə (möminlik) məqamı tövbə məqamının ardınca gəlir.

**Vərə.** Vərə möminliyə qarşı olan hər bir şübhələrdən və layiq olmayan hər bir şeydən əl çəkməkdir. Şibli deyir*: “Möminlik Allahdan başqa hər şeydən çəkinməkdir”* (Nikolson, 1373, s. 166-167) . “Misbahül-üns” əsərində möminlik haqqında belə yazılır: Möminlik hər bir dini və mənəvi çatışmazlıqlardan çəkinmək və razılıq halını özündə yekunlaşdırmaqdır (Səccadi, 1372, s. 415).

Şibli deyir: “Möminlik üç növdür: birinci dilin möminliyidir. O gərək mənasız olan hər bir şey haqqında sussun və zəhlətökən adamlardan kənar olsun. İkinci böyük şəxslərin möminliyidir ki, gərək şübhəli və inam doğurmayan işlərdən uzaqlaşsın, üçüncüsü qəlbin möminliyidir ki, gərək pis əxlaq və davranışlardan uzaq olsun” (Səccadi, 1373, c. 1, s. 415). Mövlana deyir:

مؤمنان آینه همدیگرند

(Cəlaləddin Rumi, 1372, s. 67) اين خبر مي از پيمبر آورند

(Möminlər bir-birlərinin aynasıdırlar, bu xəbəri bizə peyğəmbərdən gətirdilər)

Mömin olan şəxslər öz imanları ilə bir-birinin aynasına çevrilirlər. İkinci misra Məhəmməd (s) peyğəmbərin “Mömin möminin aynasıdır” hədisinə istinadən yazılmışdır. Mövlana bu barədə belə deyir: “Əgər qardaşında eyb görürsənsə, bu sənin öz eybindir ki, onda

görürsən. Aləm güzgü kimidir. Öz naxışını onda görürsən. O, eybi özündən ayır, çünki ondan nə qədər inciyirsənsə demək özündən inciyirsən” (Zamani, 1373, c. 1, s. 977).

مؤمن ار ينظر بنور الله نبود

غيب مؤمن را برهنه چون نمود (Cəlaləddin Rumi, 1372, s. 68)

(Əgər mömin Tanrı nuruyla baxmamış olsaydı, qeyb möminə bütün çılpaqlığı ilə necə görünərdi?)

Peyğəmbər (s) bir hədisində deyir: “Mömininin baxışından qorxun ki, o Tanrı nuruyla görür”. (Zamani, 1373, c. 1, s. 977)

مؤمنان را بر پا شد عاقبت

بر منافق مات اندر آخرت (Cəlaləddin Rumi, 1372, s. 34)

مؤمن آن باشد كه اندر جزر و مد

كافر از ايمان او حسرت خورد (Cəlaləddin Rumi, 1372, s. 851)

(Möminlər üçün aqibətdə təmizlik qazanc qalır. Münafiqlər (ikiüzlülər) isə axirətdə mat-məbhut qalar. Mömin o şəxsə deyirlər ki, kafir onun imanının həsrətini çəksin). Bəzilərinin söylədiklərinə görə, möminlik qadağan olunmuş şeylərdən çəkinməkdən, zahidlik isə şübhələrdən uzaq olmaqdan ibarətdir. Mömin o şəxsdir ki, həyatın enişi yoxuşunda elə hərəkət etsin ki, onun imanının mayası kafirin həsrətinə çevrilsin. Mömininin davranışı və həyat tərzi digərlərinə nümunə olmalıdır.

Mövlana deyir:

سر مارا بی گمان موقن شود

زانكه مؤمن آينه مؤمن بود (Cəlaləddin Rumi, 1372, s. 143)

مؤمنان معدود ليک ايمان يکی

جسمشان معدود ليكن جان يكي

كرده، او كرده تست اي حكيم

مؤمنان را اتصالی دان قديم (Cəlaləddin Rumi, 1372, s. 557)

(Şübhə yox ki, sirrimizi bilən, olduğu kimi anlar, çünki mömin mömininin aynasıdır. Möminlərin sayı çoxdur, ancaq imanları birdir, cismləri çoxdur, ancaq canları təkdir. Ey hikmət sahibi, onun etdiyi etdiyindir, möminlər arasında qədimdən əlaqə var. Onlar birdirlər). Mömin Mövlananın nəzərində öz batinini tamah və sair bəyənilməz vəsflərdən təmizləmiş və özünə elə bir kinsiz qəlb tapmışdır ki, bu iman, ilham, ilahi müşahidələr və ruhi kəşflərin çeşməsinə çevrilmişdir. İmanın əsas xüsusiyyətləri şəxsin xudbinlik və özünün mənzilindən səyahət edib ali əxlaq və mənəvi kamillik mənzilinə qalxmasıdır. Möminlərin hamısı Allaha və peyğəmbərlərin birliyinə inanırlar. Cismani cəhətdən çoxsaylı olsalar da ruhları birdir.

نیم او مؤمن بود نیمیش گبر
نیم او حرص آوري، تیمیش صبر
گفت یزدان ات: فمنکم مؤمن
باز منکم کافر کبر کهن (Cəlaləddin Rumi, 1372, s. 205)

(Onun yarısı mömindir, yarısı atəşpərəst (kafir), onun yarısı tamah gətirir, yarısı səbr. Tanrımız dedi: İçinizdə mömin də var, kafir və bütpərəst də.) "Qurani-kərim"in "ət-Təğabun" surəsinin 2-ci ayəsində deyilir: "Sizi yaradan Odur. Kiminiz kafirsiniz, kiminiz mömin. Allah nə etdikləririnizi görəndir". Mövlana möminliyin əsasını Peyğəmbərdə (s) görür və buna görə də müqəddəs kitabımızdan sitat gətirir. Mövlananın nəzərində mömin bəndə Haqq-təalanın onun bütün işlərindən xəbərdar olduğunu bilməlidir. Elə bu səbəbdən mömin ali əxlaqa malik olmağa çalışır.

Əxlaqi prinsiplərə əsaslanan həqiqi möminlik insanın şüuruna elə təsir göstərir ki, o mənasız olan hər bir şey haqqında susur, şübhəli və inam doğurmayan işlərdən uzaqlaşır və qəlbini bütün pis əxlaq və davranışlardan təmizləyir. Beləliklə maddi dünyanın çirkinliklərindən çəkinir və bu da onu zühd məqamına çatdırır.

**Zühd:** Zühd haqqında müxtəlif fikirlər var. Bəzilərinin fikrincə zahidlik, yəni tərkidünyalıq şəriətdə haram idi. Çünki Haqq-təala tərəfindən möminliyin əsas rəmzi kimi halallıq qəbul edilirdi. Əgər Haqq-təala hər hansı bir bəndəsinə halallıqla nemət bəxş edirsə və bəndə sükr əvəzinə qiyam qaldırarsa, belə şeylər şəriətdə arzuolunmazdır. Bir qrup da belə hesab edir ki, tərki-dünyalıq haramda vacib idi, halalda isə fəzilət (Qusheyri, 1345, s. 174). Həzrət Əlinin zühdü o qədər məşhur olmuşdur ki, görkəmli şairlər Sənayi Qəznəvi və Nasir Xosrov şeirlərində onu vəsf etmişlər (Alizade, 2023). Bu bir daha onu göstərir ki, zühd hələ islamın ilk dövrlərindən Peyğəmbər və tərəfdaşlarının mühüm xüsusiyyəti olmuşdur. Başqa bir qrup belə deyir: "Bəndə süni şəkildə halal malından imtina etməməlidir. Ehtiyacı olmadığını axtarmamalıdır. Öz qismətilə razılaşmalıdır. Əgər halal mal verilərsə, şükr etməlidir. Yaşayış üçün ən az vəsaiti olsa belə, möhtac olduğundan artıq tələb etməməlidir. Sufi səbrli olmalı və hər bir şeyə görə ilk növbədə şükr etməlidir".

Tərkidünyalıq üç şeydədir: "Əvvələn dünyəvi, ikinci xəlqi, üçüncü insani, yəni insanın özündə. Dünyada olan yəni dünyəvi tərki-dünyalıq üç şeydən ibarətdir: ölümü yad etmək, yeməyə qənaət, dərvişlərlə söhbət. Xalqda olan yəni xəlqi tərki-dünyalığın əlamətləri üç cür özünü nişan verir: hökmün üstünlüyünü, xalqın acizliyini, taleyin istiqamətini görmək. İnsani zühd, yəni insanın özündə olan tərki-dünyalıq üç cürdür: İblisin hiyləgərliyini tanımaq, öz zəifliyinə bələd olmaq və istidrac (dərəcələnmə, sehr qəbilindən fövqəltəbii işlər görən kafir

insanlar) qaranlığını tanıma (Qusheyri, 1345, s. 176). Mövlana “Məsnəvi-ye mənəvi” də zahidlik haqqında belə deyir:

هر که محبوس است اندر بو ورنگ
گرچه در زهد است باشد خوش تنگ
تابرون باید از این ننگین مناخ
كي شود خويش خوش و صدرش فراخ؟ (Cəlaləddin Rumi, 1372, s. 858)

(Kim rəngin və iyin həbsindədirsə, zahid olsa belə halı daralar. Bu dar hasardan çıxmasa, əxlaqı necə düzələr, könlü necə açılar). Sufi daim özünün maddi nemətlərin istəyindən azad etməli, bütün nəfsi istəklərini öldürməlidir ki, zühd məqamını kəsb edə bilsin. Çünki dünyəvi istəklər müəyyən çərçivə daxilində olur. İlahi eşqi isə hüdudsuz olduğundan heç bir çərçivəyə sala bilməz. Başqa sözlə desək, maddi nemətlər ilahi eşqin qarşısında bir səddir ki, salik bunu dəf edə bilməsə öz təriqət yolçuluğuna davam edə bilməz.

Vərə, yəni möminlik məqamı ilə zühd (zahidlik) bir-biri ilə çox bağlı mərhələlərdir ki, birini digəri olmadan təsəvvür etmək mümkün deyil. Yüksək tərbiyəvi və ali əxlaqi prinsiplərə əsaslanan bu məqamlar insanın kamilləşməsinə xidmət edir. Kamil insan birinci növbədə Haqq-təala tərəfindən bizə bəxş edilmiş ruhun təmizlənməsi üçün çalışır. Çünki onsuz da fani olan cism məhv olduqdan sonra (istər ixtiyari, istərsə də icbari ölüm vasitəsilə) qalan ruh olur ki, bu da mənbəyinə qayıtmalıdır. İnsan ruhunun yerə nazil olma və qayıtma qövsünün sirlərinə sufi-ariflər bələd idilər. Buna görə də ruhun təmizlənməsi, daim pak qalması üçün ən təhlükəsiz və xeyirli vasitə kimi daim Allaha olan ibadəti irəli sürürdülər. Buna görə də Mövlana deyir:

زهد و تقوی را گزیدم دین و کیش
زانک میدیدم اجل را پیش خویش (Cəlaləddin Rumi, 1372, s. 912)

(Zahidliyi və möminliyi özünə din və məslək seçdim. Çünki əcəlimi önümdə görürəm).

Mövlana zahidlə aşiqi müqayisə edərək deyir:

زاهد با ترس میتازد بپا
عاشقان بران تر از برق و هوا (Cəlaləddin Rumi, 1372, s. 799)

(Zahid qorxu ilə qaçar, aşiqlər isə şimşəkdən də sürətlə axarlar, küləkdən də). Mövlananın fikrincə zühd məqamına çatmış sufini hələ əsl aşiq hesab etmək olmaz. Çünki sufinin hələ çətin yolları öndədir. Zahid bu məqamda ilişib qala da bilər, bu yolların çətinliyindən qorxa da bilər. Əsil aşiq üçün isə heç bir maneə yoxdur. Onların bircə istəyi var ki, bu da Məşuquna çatmaqdır. Sufilər dünyəvi buxovlardan azad olandan sonra ruhən Mütləq Camala doğru sürətli hərəkətdədirlər.

Zühd məqamı "Bu dünyadan olmayıb bu dünya ilə yaşamaq prinsipi"ni təsdiqləyir. Zühd məqamına çatan sufi intiutiv cəhətdən güclü bir şəxsə çevrilir. Bu məqamda mənən saflaşmış sufi arifə Haqq-təala tərəfindən bəsirət gözünün açılmasına icazə verilir ki, bu zaman o İblisin hiyləgərliyini və onun hiyləsinə uymuş insanları tanıyır, özünün müəyyən dərəcədə bu fakt qarşısında acizliyini dərk edir, qəblindən fövqəltəbii işlər görən şəxslərdən çəkinir ki, buna da istidrac qaranlığını tanıma deyirlər. Zühd məqamını keçən sufinin bir olan Allahdan başqa heç nəyə ehtiyacı qalmır və o, beləliklə fəxrli fəqirliyə, yəni fəqr məqamına çatır.

**Fəqr.** Təsəvvüf nöqteyi-nəzərindən fəqr çox mühüm və diqqətəlayiq məqamlardan biri sayılır. O, Allaha böyük ehtiyac və Ondan qeyrisinə etinasızlıqdan ibarətdir. Müqəddəs Quranın bir ayəsində belə deyilir: "Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir və hər cür şükrə və tərifə layiqdir! (Onun bütün işləri bəyəniləndir!)" (Quran, 1991, s. 431).

Fəqr haqqında "Məsnəvi"də deyilir:

گفت اي زن تو زني يا بو الحزن

فقر فخر است مرا طعنه مزن (Cəlaləddin Rumi, 1372, s. 109)

(Dedi: Ey qadın, sən qadınsan yainki hüzn övladı. Yoxsulluq fəxrdir, mənə tənə etmə).

Mövlana bunun ardınca deyir:

فقر فخری نز گزا فست و مجاز

ني هزاران عز پنهانست و ناز (Cəlaləddin Rumi, 1372, s. 110)

(Fəqirlik fəxrimdir, boş söz və məcaz deyil, yüz minlərlə insan onun gözəlliyi və zərifliyinə layiq görülüblər).

"Risale-ye Qüşeyriyyə" də fəqr birinci babda gəlir və bu haqda belə yazılır: Sufilik birinci şüar idi... Sufilər Allahın bəndələri və onun sirləri nöqteyi-nəzərindən Allah tərəfindən seçilmiş adamlar idi. Böyük peyğəmbərin dediyinə görə sufilər qiyamətdə Haqq-təalaya yaxın adamlar olacaqlar" (Qusheyri, 1345, s. 452).

"Mirsadül-ibad" əsərində yazılır: *"Mənə nəsib olanlardan kamım nakamlıqda, muradım muradsızlıqda, varlığım yoxluqda, baca-rığım və fəxrim isə fəqirlikdədir. Fəxr olunan yoxsulluq... Ey Məhəmməd, bu nə sirrdir ki, peyğəmbərlərin başçısı olmaqla fəxr eləmirsən, fəqirliklə iftixar edirsən? Bizim yolumuz eşq və məhəbbət üzərindədir ki, bu yol da yoxsulluğa aparır. Rəhbərlik və başçılıq isə varlıqdadır*" (Razi, 1366, s.155).

Qeyd etmək lazımdır ki, fəqir, dərviş gəda sözlərini fəqir və yoxsul kimi mənalandırırlar. Bəzən onları eyni mənada da işlədirlər. Lakin bu sözlər mənaca bir-birindən fərqlidirlər.

Həqiqi fəqir fəqirliyi üzə vurmur. Elə buradandır ki, fəqr məqamına çatır, ancaq Allaha möhtacdır.

مال دنيا شد تبسم هاي حق

كرد ما را مست و مغرور و خلق

فقر و رنجوري به استت اي سند

كان تبسم دام خود را بر كند (Cəlaləddin Rumi, 1372, s.137)

(Dünya malı Allahın təbəssümləridir. Bu surət bizi məst məğrur və çürük köhnə etmişdir. Ey etimada layiq! Sənin üçün fəqr, yoxsulluq yaxşıdır. Çünki bu təbəssüm öz tələsini axırda quracaq) Dünya malı və zahiri məqamlar həqiqətdə İlahinin təbəssümünün bir cilvəsidir. Cahil adamın isə bu təbəssümün içində atəşli və məhvedici qəzəbin gizləndiyindən xəbəri yoxdur.

چون فناش از فقر پيرايه شود

او محمد وار بي سايه شود (Cəlaləddin Rumi, 1372, s.32)

(Fəna məqamına çatan adam fəqirlikdən zinət tapar və Məhəmməd (s) kimi kölgəsi olmaz) Bəzi rəvayətlərdə deyilir ki, Məhəmməd peyğəmbərin kölgəsi yerə düşmürmüş. Çünki kölgə zülmət nişanəsidir (98, c. 4, s. 204).

فقر، فخري را فنا پيرايه شد

چون زبانه شمع او بي سايه شد (Cəlaləddin Rumi, 1372, s.732)

"Fəqirlik mənim iftixarımdır" sirrinə fəna zinətdir. Belə adamlar şamın alovu kimi kölgəsizdirlər.

فقر، فخري بهر آن آمد سني

تا ز طماعان گريزم در غني (Cəlaləddin Rumi, 1372, s.734)

(Peyğəmbərin (s) "Fəqirlik mənim fəxrimdir" sözü onun üçün uca bir söz oldu. Mənim isə tamahkarlardan uzaqlaşmağıma və Tanrıya doğru pənah aparmağıma yol açdı). Hüseyn Ənsariyana müraciət etsək görəcəyik ki, onun yoxsulluq haqqında fikirləri belədir: Fəqr müəllifin kitabında zikrdən sonra otuz birinci sırada gəlir. "Zikr (yadetmə) meydanından fəqr meydanı doğulur. Fəqr, yəni yoxsulluq dərvişlikdir və o üçdür: məcburi yoxsulluq, azad, yəni ixtiyari yoxsulluq, təhqiqi (həqiqi) yoxsulluq. Məcburi yoxsulluq üçdür: 1. Günahların yuyulması. 2. Əzab. 3.

Qətiyyət Günahların yuyulmasının nişanı intizar və səbrdir, əzabın nişanı darıxma və ovqatı təlxlik, qətiyyətin nişanı qəzəbdir. İxtiyarı yoxsulluq üçdür: Dərəcə, yaxınlıq, kəramət. Dərəcə qənaətlə, yaxınlıq razılıqla, kəramət isə fəda ilədir. Təhqiqi yoxsulluq üçdür: Yoxluq üzündən cəfa, nemətin ölçüyəgəlməzliyi, şükrün qiymətləndirilməsinə dözülməzlik (Ənsariyan, 1368, c.1, s. 2). Həqiqi sufi Allahdan başqa heç kimə və heç nəyə möhtac deyil.

O, dünya malına etinasızdır. Sufi bu məqamda birinci növbədə maddi nemətlərdən çəkinməli və öz nəfsini təmizləməlidir. Daim Haqq-təalanın zikri və Ona çatmaq istəyi sufini elə bir vəziyyətə gətirir ki, o maddi nemətlərə qətiyyən əhəmiyyət vermir. Bununla belə o özünü zəngin sayır, çünki onun böyük xəzinəsi var - bütün varlığını bürüyən ilahi eşq. Sufiyə görə əsl fəqir dünya nemətlərindən yapışıb ilahi sevgiyə qəlbini bağlayanlardır. Onlar hər bir maddi çatışmazlıqlara səbrlə yanaşırlar. Məhz elə bu səbəbdəndir ki, səbr məqamı fəqr məqamından sonra gəlir. Sufi səbr məqamından əvvəl fəqr məqamında gərgin sınaqlardan keçir. Bu sınaqdan keçə bilməyən salik səbr məqamına çata bilməz.

**Səbr.** Səbr təsəvvüfün məqamlarından beşincisidir. Səbr insanın nişanəsi və möminliyə doğru yol sayılır. Belə nəql edirlər ki, Peyğəmbərdən (s) iman haqqında soruşanda cavab verir ki, iman səbr və xoşxasiyyətlilikdir. Deyirlər ki, səbr edən dərvişlər qiyamət günü Allaha yaxın kəslər olacaqlar. Səbr edənlər hər iki dünyada qələbə qazanmışlar. Çünki onlar Allah tərəfindən müşayiət olunurlar. Belə ki, səbr dözümlülükdən, dözümlülük (Allaha) bağlılıqdan üstündür. (Qusheyri, 1345). Səbr imanın iki qaydasından biridir. Səbr üç növdür: nəfsin səbri, qəlbin səbri, ruhun səbri (Nikolson, 1373, s. 379).

Hüseyn Ənsariyan yazır: “Səbr meydanı qəsd meydanından doğulur. Allah-təalanın “Ən-Nisa” surəsinin 25-ci ayəsində buyurduğu kimi: *“Əgər səbr edərsinizsə, sizin üçün daha yaxşı olar”* (Quran, 1991, s. 69). Səbrin əsası üçdür: birinci səbrsizlikdən azad olmaq, ikinci günah işlətməkdən azad olmaq, üçüncüsü isə itaət (Ənsariyan, 1368, c.1). Nəfsin səbri dünyəvi istəklər qarşısında salikin dayanmalı olduğu bir sınaqdır ki, burada o, səbrsizlikdən azad olmalıdır. Qəlbin səbri bütün günah işlərdən çəkinmək və hər hansı bir günahı işləməkdən azad olmaqdır. Ruhun səbri isə Allaha olan itaətdir. Mövlanaya görə səbr insan ruhuna hələ o (ruh), laməkanlıq aləmində dolandığı vaxt verilir və bu dünyada insanın səbrinin gücü onun imanının möhkəmliyindən asılıdır. İman zəif olarsa, səbrsizlik insanı həm cismən, həm də ruhən zəiflədərək onun həyatını ah-naləyə çevirər.

Buna görə də Cəlaləddin Rumi “Məsnəvi-ye Mənəvi”nin ikinci dəftərində yazır:

صبر شيرين از خيال خوش شدست
كان خيالات فرج پيش آمد است
آن فرج آيد ز ايمان در ضمير
ضعف ايمان نا اميدي و زحير
صبر از ايمان بيايد سر كله
حيث لا صبر فلا ايمان له
گفت پيغمبر خداش ايمان نداد

هر کرا صبري نباشد در نهاد (Cəlaləddin Rumi, 1372, s. 205)

(Şirin səbr xoş xəyaldan yaranıb. O xəyallar əvvəlki qurtuluşdan gəlir. O qurtuluş insanın qəlbindəki imandan gəlir. İmanın zəifliyi ümidsizlik və ah-nalədir.

Səbr imana görə baş tacı olur. Səbri olmayanın imanı da yoxdur. Peyğəmbər (s) deyib: Allah qəlbində səbri olmayana iman da verməmişdir)

گفت مجنون : من نميترسم زنيش

صبر من از کوه سنگين هس (Cəlaləddin Rumi, 1372, s. 791)

(Məcnun dedi: mən yaralanmaqdan qorxmuram, çünki mənim səbrim əzəmətli dağdan da çoxdur).

Molla Hüseyn Kaşefi yazır: "Səbrlə nəfs paklaşır, zülmətin əlvanlığından, təmənna və arzuların küdurətindən azad olur. Qəlb bu əlaqələri tərk edərək paklaşır. Bu elə bir kimyadır ki, misi salikin vücudunda xalis qızıla çevirir". (Nikolson, 1373, s. 27) Mövlana dediyi kimi:

صد هزاران کيميا حق آفريد

کيميايي همچو صبر آدم نديد

گفت لقمان صبر هم نيکو دميست

که پناه و دافع هرجا غميست

صبر را با حق قرين کرد اي فلان

آخر و العصر را آگه بخوان (Cəlaləddin Rumi, 1372, s. 412-413)

(Tanrı yüz minlərlə kimya yaratdı, amma insan səbr kimi kimya görmədi Loğman dedi ki, səbr də gözəl xoş andır. Her dərddə ona sığınmaq olar, o hər qəmi aparır. Ey insan, "Əsr" surəsinin sonunu diqqətlə oxu, Tanrı səbri Haqqa bərabər saydı).

"Qurani-kərim"in "Əsr" surəsində deyilir: "İnsan ziyan içindədir! Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!"

مرد مهمان صبر کرد و ناگمان

کشف گشتش حال مشکل در زمان (Cəlaləddin Rumi, 1372, s. 413)

(Qonaq səbr etdi və qəfildən çətin məsələnin həllini tapdı)

Xudavəndi-təala hamımıza səbr versin!

صبر مه را شب منور داردش

صبر کل با خار اذفر داردش

يار بد نيکوست بهر صبر را

که گشايد صبر کردن صدر را

صبر جمله انبيا با منکران

کردشان خاص حق و صاحب قرآن

هر كه را بيني يكي جامه درست
دانک او آنرا بصبر و کسب جست
هر كرا ديدي برهنه و بينوا
هست بربي صبري او آن گوا (Cəlaləddin Rumi, 1372, s. 952)

(Ayın gecə səbr etməsi onu nurlandırır. Gülün tikana səbr etməsi onu ətirli bir hala gətirir. Səbr edərsən, pis dostun yaxşı olar, səbr etmək insanın qəlbini genişləndirir. Peyğəmbərin (s) münkirlərə səbr etməsi onları Allah tərəfindən seçilmişlərə çevirmiş və xoşbəxt etmişdir. Hər kəsdə səliqəli paltar görsən bil ki, onu səbr və çalışmaqla əldə etmişdir. Kimi ac, çılpaq görsən, onun səbirsizliyi buna səbəb olmuşdur). Bu məqamda sufi səbirsizlikdən azad olub günah işlətməkdən çəkinməli və təkcə bir olan Allaha itaət etməlidir. Səbr vasitəsilə nəfs paklaşaraq təmənna və arzuların küdurətindən azad olur. Bu zaman qəlb də bu əlaqələri tərk edərək saflaşır. Səbr hər bir insan insan üçün vacib şərt sayılır. Mövcud ictimai formasiyaların hər birində bu xüsusiyyət insanın yaşayışını asanlaşdırmağa xidmət etmişdir. Müasir dünyamızda da bütün ictimai-siyasi və iqtisadi böhranlar içində əgər bu məqama diqqət verilsəydi, bəlkə yer üzündən müharibələr də silinərdi. Səbr edən insan hər bir zaman Allaha təvəkkül edir.

**Təvəkkül:** Təvəkkül altıncı məqam sayılır.

Deyirlər təvəkkül qüdrət və ağıl sahibi Allahın xəzinəsində olan ən böyük imandır. Bu eyni zamanda xalqın əlində olanlardan ümidsizlikdir. Səhl bin Abdullanın yazdığına görə təvəkkül yəni ümid Peyğəmbərin (s) halı və onun qanunlarının özülü idi. Onun halından geri qalan səxs, onun qanunlarından geri qalmamalı idi (Qusheyri, 134). Sufilərin təvəkkülə münasibətləri müxtəlifdir: Bir qrup təvəkkülü, səy, çalışma və diqqətə zidd bir vasitə saymırlar. Digər bir qrup isə təvəkkülü bütün vasitələrin tərki və bütün işlərdən üzdöndərmə kimi bəyənir və hətta-xəstəlik zamanı dərmandan istifadəni və həkimə müraciət etməni təvəkkülün əksinə çıxmaq kimi qəbul edirlər. Ancaq sufilərin böyük bir qismi birinci nəzəriyyənin tərəfdarıdırlar (Səccadi, 1372, s. 28). Sufilərin nəzərində Allaha təvəkkül edərək məqsədə çatmaqdan istifadə caizdir. Məqsədə çatmaq xalqın heç bir minnəti olmadan ona çatan ərzaq və ruzidir.

Mövlana Cəlaləddin Cəlaləddin Rumi “Məsnəvi-ye Mənəvi”nin birinci dəftərində “Ovçular və şir” dastanında təvəkkül, səy, çalışma və məcburiyyət mövzusunu açıqlayır və şiri səy, çalışma tərəfdarı, ovçuları isə ümidə inanan, bekar və tənbəl kimi təsvir edir. Mövlananın özü təvəkkülü səy və əməlin ziddi kimi qəbul etmir. Çünki bekarçılıq, işsiz oturmaq, bir işin, amalın və peşənin ardınca getməmək cəhalətdir. Mövlananın fikrincə, məhz Allaha təvəkkül edərək müəyyən bir işdən yapışmaq lazımdır. Təvəkkül xarici hərəkətin əməli, səyi və qəlbin halətidir ki, bunlar da öz aralarında biri-digərinə zidd deyildir. Lakin dastanda təsvir olunan

ovçular çalışqanlığın və iş görmənin əksinə olduqlarından belə əqidədədirlər ki, hiylə, iş, səy, çalışqanlıq bir yerə gəlmirlərsə, bunun axırı çox pis və ziyanlı olacaqdır. Mövlana şirin dilindən söyləyir:

گر توکل میکنی در کار کن
کسب کن پس تکیه بر جبار کن (Cəlaləddin Rumi, 1372, s. 51)

(Əgər ümid bəsləyirsənsə bunu işlə bir yerdə et, əldə et sonra Allaha arxalan) O cümlədən Musa (ə) peyğəmbəri aradan götürmək üçün Fironun bəni İsrail övladlarını öldürmək üçün göstərdiyi səy də heç bir nəticə vermir. Nəticədə Musa öz ölkəsində böyük bir firona çevrilir.

Mövlana deyir:

گفت پیغمبر به آواز بلند
با توکل زانوي اشتر ببند
رمز الکاسب حبیب الله شنو
از توکل در سبب غافل مشو (Cəlaləddin Rumi, 1372, s. 50)

(Peyğəmbər uca səslə dedi: Get təvəkküllə dəvənin ayağını bağla. Eşit ki, çalışan kəs Allahın sevimlisidir. Təvəkküldən dolayı səbəbdə təşəbbüsdən qafil olma.)

Mövlana burada Peyğəmbərə (s) aid bir hədisə istinad edir. Peyğəmbərin (s) yanına gələn bir şəxs dəvəsini açıb buraxır, Peygəmbər (s) onun dəvəsinin harada olduğunu soruşduqda cavab verir ki, Allaha ümidlə buraxmışam. Bu zaman Məhəmməd (s) deyir: *"Get əvvəl dəvənin ayağını bağla, sonra Allaha təvəkkül et"*.

Təvəkkül üç dərəcədədir: 1.Təcrübəyə ümid etmə, ona arxalanma. 2. Zərurətə ümid. 3. Həqiqətə olan ümid (Ənsariyan, 1368, c. 1, s.112). Təcrübəyə olan təvəkkül çalışmaq, qurmaq və digər əldə edilən haldır. Zərurətə olan ümiddə insan bilməlidir ki, bir kəsin əlində heç nə yoxdur, hiylə işlətmək xeyir deyil. O sakitləşməlidir. Bu gözləyənlərin halıdır. Həqiqətə olan ümiddə insan gərək bilsin ki, bağışlama və qadağan müdrikin işidir. Bilin, Allah mehriban ve adildir. Qula isə heyrətlənməkdən başqa bir şey qalmır. Bu razıların halıdır. Seyrü-süluk mərhələlərini keçən sufi özünün bu yolda keçdiyi təcrübəyə arxayın olub elə buradan da onun maddi dünyada baş verən "təsadüf"ə deyil məhz zərurətə olan ümidi meydana gəlir. Hadisələrin müəyyən bərabərlik, balans daxilində yarandığını bilən sufi həmişə Həqiqətə arxalanır, ona ümid bəsləyir. Mövlananın fikrincə bekarçılıq bir işin, amalın və peşənin ardınca getməmək cəhalətdir. Məhz Allaha ümid və təvəkkül edərək hər hansı bir işə başlamaq olar. Təvəkkül məhz qəlbin vəziyyətindən irəli gələn xarici hərəkətin əməli və çalışmasıdır ki, bunlar da öz aralarında sıx surətdə bağlıdırlar.

**Riza:** Yeddinci məqam razılıq məqamıdır. Bəzi sufilər xüsusilə də Xorasan sufiləri rizani hal hesab edirlər, digər bir qrup isə on məqamların sırasına daxil edir (Səccadi, 1372, s. 30).

Qüşeyri yazır*: "Rizanın üstündə İraq və Xorasan sufiləri bir-birlərinə xilaf çıxırlar. Bəzisi deyir hallara aiddir, bəzisi deyir məqamlara. Xorasan sufiləri deyirlər: Riza məqamlardandır. Bu təvəkkülün sonudur. Mənası belə izah olunur ki, bəndə düşüncə ilə ona çatsin.*" İraq sufiləri deyirlər: *"Razılıq hallara aiddir. İnsan bu kəsbdə deyildi. Bəlkə başqa hallardakı kimi ürəyində aşağıya yuvarlanır. Deyirlər, əvvəlcə razılıq bəndə tərəfindən əldə edilmiş idi və o məqamlardan sayılırdı. Nəhayət o hallara çevrilir ki, bu da əldə edilən deyil*" (Qusheyri, 1345, s. 299).

Təsəvvüfdəki hallardan fərqli olaraq razılıq, yəni riza kamil insanın ümumi halı kimi də qəbul edilir. Sufi halları qeybdən gələn parıltı, işıq xarakteri daşıdığından "riza"nı məqamların sırasına daxil etmək lazımdır. Çünki razılıq uzun müddət davam edir və məhz səbr və təvəkkül məqamından sonra əldə edilir.

Əgər insan Allah-təaladan razı ola bilmirsə, Haqq ondan heç vaxt razı ola bilməz. Zunnun deyir: "Üç şey razılığın əlaməti idi: 1. Hadisədən qabaq ixtiyara əl atmaq. 2. Hadisədən sonra acılıq hiss etməmək. 3. Bəla və qəzəb vaxtı məhəbbət tapmaq (Qusheyri, 1345, s. 300). Haqq-təaladan razı olan kəs hər bir hadisənin müəyyən obyektiv və subyektiv səbəblər üzündən baş verdiyini anlamalı və onu olduğu kimi qəbul etməlidir. Hadisə nə qədər acınacaqlı olursa olsun, sufi burada Tanrının təqdirini görməli, işə səbrlə yanaşaraq göstərdiyi hadisədən sonra Allaha ümid etməlidir. Zünnun Misrinin göstərdiyi hadisədən sonra acılığı yalnız bu vasitə ilə dəf etmək, hər hansı qəza və bəladan nicat yolu tapmaq da olar.

"Misbahül-hidayə" də yazılır: *"Razılıq məqamı vüsala çatanların məqamıdır. Saliklərin mənzili deyil. Razılıq üstündür ya tərki-dünyalıq?" deyə soruşan Füzeyl Ayazın cavabında Bişr Hafi deyir: "Razılıq üstündür, çünki zahid yoldadır və razı çatmışdır"* (Nikolson, 1373, s. 402).

قفل زفتست و گشاینده خدا
دست در تسلیم زن و اندر رضا (Cəlaləddin Rumi, 1372, s. 463)

(Kilid möhkəm, qatranlıdır, bunu açan isə Allahdır, riza zamanı təslim ol). Mövlanaya görə riza məqamında olan şəxs qəlbinin bütün kin-küdurətini, qəzəb və nifrətini Allah-təalanın qarşısında təslim edir. Riza məqamında sakin olan şəxs paxıllıqdan azaddır. Razılıq məhəbbətdən irəli gəlir. Tanrı isə insanın qismətində səhv etmir. Kimə nə qədər verməlidirsə verir ki, bəndə ondan razı qalsın. Haqqın verdiyinə və göndərdiyinə etiraz etməsin.

Mövlana "Bəhlulun dərvişə sual verməsi" hekayəsində dərvişin dilindən söyləyir:

گفت چون باشد کسی را جاودان

بر مراد او رود کار جهان
سیل وجوبا بر مراد او روند
اختران زان سان که خواهد آن شود
زندگی و مرگ، سرهنگان او
بر مراد او روانه کو به کو
هر کجا خواهد فرستاد تعزیت
هر کجا خواهد ببخشد تهنیت
سالکان راه هم برکام او
ماندگان از راه، هم در دام او
هیچ دندانی نخندد در جهان
بي رضا و امر آن فرمان روان (Cəlaləddin Rumi, 1372, s. 414)

(Dedi: Dünyadakı işlər əbədi olan Kəsin dilədiyi kimi olur. Sellər, çaylar onun muradınca axar, ulduzlar onun hökm etdiyi kimi olur. Həyat və ölüm onun əsgəridir, onun istəyincə küçəbəküçə gedərlər. Hara istəsə hüzr yollar, hara istəsə sevinc bəxş edər. Haqq yolunun salikləri onun iradəsiylə hərəkət edər, yolda qalanlar onun tələsinə düşərlər. Dünyada heç kəs fərman verənin əmri və rizası olmadan gülməz). Bu beytlər "Bəqərə" surəsinin 164-cü və "Ər-Rəd" surəsinin 2-ci, 3-cü, 4-cü, 26-cı və 39-cu ayələrinə işarədir. Cəlaləddin Rumi bu fikirləri ilə həm ərəb dilinə bələd olmayan insanlara Allah kəlamını açıqlayır, həm də saliklərə bu yolda başa salırdı ki, dünyada baş verən hər şey Allah-təalanın razılığı ilə baş verir və bəndə heç vaxt Allahına qarşı qiyam qaldırmamalı və üsyan etməməlidir. Əgər həyat və ölüm Allahın əmri ilə baş verirsə o zaman "həyat" adlı nemət bəxş edilmiş insan nə üçün Allahan razı olmamalıdır. Mövlanaya görə insan elə təkcə bu həyatda yaşadığına görə Allaha borcludur. Hər kəs Allahın göstərdiyi yolla getməlidir, əks halda yollarını azmış və şeytana uymuş olurlar. İnsan düşüncə və əməlinin müqabilində mükafatlanır. Buna görə də Allahdan razı olmalıdır.

چون فضاي حق، رضاي بنده شد
حکم او را بنده خواهنده شد
بی تکلف بي مزد و ثواب
بلکه طبع او چنین شد مستطاب
پس چرا گوید دعا؟ الا مگر
در دعا بیند رضاي دادگر (Cəlaləddin Rumi, 1372, s. 415)

(Tanrının təqdiri bəndənin rizasıdır, bəndə Tanrı hökmünə riza verib onu diləyən olur. Məcburiyyət, muzd və savaba görə deyil, bu razılıq xoş görünürsə öz-özünə meydana gəlir. Bəs nəyə görə dua edir? Çünki Tanrı rizasını duada görür).

**Nəticə**

Yüksək mənəvi məqama çatan insan bəla və qəzaların dəf olunmasını duada görür. Bir şərtlə ki, mütləq bu dualara Allahın razı olduğunu görsün. Belə insanlar yalnız Tanrının razılığı ilə dua edirlər, ancaq təkcə öz bəla və müsibətlərindən azad olmaq üçün yox. Tövbə edib bütün haramlardan əl çəkən, hər bir dini və mənəvi çatışmazlıqlardan çəkinən, pis əxlaq və davranışlardan uzaq olan, taleyin istiqamətini görməyi bacaran maddi dünyanın fani nemətlərindən əl çəkib fəqirliyi özünə zinət sayan, həyatda və ətrafında baş verənlərə öz möhkəm imanından törəyən səbri ilə yanaşan və daim Allaha ümid edən sufi təbii ki, Tanrısından razı olur. Bəla və qəzəb vaxtı da məhəbbət tapan sufi daim vüsala çatmağa ümid edir.

**Ədəbiyyat**

Alizade, A. (2023). The Character of ʿAlī in the Poems of Nāsir-i Khusraw and Sanāʾī Ghaznavī. *Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi*, (106), 81-108.

Alizade, A. (2024). Symbolic Flight of the Birds: Exploring the Spiritual Journey From Avicenna's ʿAyniyyah Eulogy to Navāʾī's Lisān al-Ṭayr. *The Oriental Studies*, (94), 189-232. https://doi.org/10.15407/skhodoznavstvo2024.94.189

Cəlaləddin Rumi. (1372). *Məsnəvi-ye mənəvi*. Tehran. (In Persian).

Əkbarabadi ,V. M. (1312). *Sharh-e Məsnəvi*. Likehnu, Chap-e sangi (In Persian).

Ənsariyan, H. (1368). *Erfan-e eslami*. Entesharat-e Peyam-e Azadi, Jeld-e 1.(In Persian).

Əttar, F. (1341). *Mantiq ul-Teyr*. Tehran. (In Persian).

Humayi, C. (1353). *Mövləvinamə* (Mövləvi che miquyəd) Celdha-ye 1-2 Tehran. (In Persian).

Kaşani, Ə. M. (1325). *Misbah al-Hidaya*. Tehran. (In Persian).

Nikolson, R. (1373). *Təsəvvof-e eslami və rabete-ye ensan və xoda*. Tehran. (In Persian).

*Qurani-Kərim*. (1991). Bakı.

Qusheyri, Ə. ül-K. (1345). *Resale-ye Qusheyriyyə*, Tehran. (In Persian).

Razi, N. (1366). *Mirsadul-ibad*. Tehran. (In Persian).

Səccadi, S.C. (1373). *Fərhəng-e maaref-e eslami*. celd-e 1-3. Tehran. (In Persian).

Zamani, K. (1373). *Shərh-e came-e Məsnəvi-ye mənəvi*. Celdha-ye 1-7. Entesharat-e ettelaat. (In Persian).

Zərrinkub, Ə. (1373). *Serr-e ney. Nəqd və shərh-e təhlili və tətbiqi-ye Məsnəv*i. celd-e 1-2. Tehran. (In Persian).